# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

Bakı şəhəri № 219/1 27 aprel 2011-ci il

Beynəlxalq Standartların tələblərinə uyğun olaraq auditor adı almaq üçün imtahan proqramının təkmilləşdirilməsi barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə müvafiq olaraq, Auditorlar Palatası Şurasının 2007-ci il 4 dekabr tarixli 185/4 saylı qərarı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyayanı həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyət planının (2007-2011-ci illər)", Auditorlar Palatasının 2011-2013-cü illər üzrə iş planının və Palata Şurasının 2011-ci il üzrə iş planının - "Beynəlxalq Standartların tələblərinə uyğun olaraq auditor adı almaq üçün imtahan proqramının təkmilləşdirilməsi" barədə 4.4-cü və 23-cü bəndlərinin icrası ilə əlaqədar, habelə Palata Şurasının 2011-ci il 30 mart tarixli 218/3 saylı qərarına uyğun olaraq müvafiq rəyçilərin (N.Abbaslı, İ.Bayramov) və Şura üzvlərinin əlavə və təkliflərini nəzərə alınmaqla Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsi (S.Gülməmmədov) tərəfindən yenidən hazırlanmış "Auditor adı almaq üçün imtahan proqramı"nın layihəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Beynəlxalq Standartların tələblərinə uyğun olaraq hazırlanmış "Auditor adı almaq üçün imtahan proqramı" təsdiq edilsin (əlavə olunur).
2. İmtahan Komissiyasına tapşırılsın ki, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsi (S.Gülməmmədov) ilə birlikdə 2011-ci ildə auditor adı almaq üçün imtahanların təsdiq edilmiş bu proqram əsasında yüksək səviyyədə keçirilməsini təmin etsinlər.
3. İmtahan Komissiyasına və Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, auditor adı almaq üçün imtahanın test üsulları ilə aparılması üzrə təklifləri hazırlayıb təqdim etsinlər.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**